# GÖZ

*esse*



BARAT VÜSAL

*Niyə gözlərinin rəngi qaradır?*
*İnsanlıq ölmüşdür, matəm saxlayır.*

*Nizami*

*Qamətin qəddi qiyamət eylədi,*
*Gör bir qəddi ki, nə qamət eylədi.*
*Kəbədə bir dəm iqamət eylədi,*
*Gözlərin ona imamət eylədi.*

*Nəsimi*

GÖZ imammış ...

Bunu Nəsimi deyir.

Göz insanın bədənində elə yerdə qərar tutub ki, şair onu məsciddə (yaxud Kəbədə) öndə durub insanlara Cümə namazı qıldıran (Cümə namazını idarə edən) imama oxşadıb.

Sən demə, iki cahan insanın iki gözündə tapıbmış öz əksini. Bu haqda Nizami oğluna etdiyi nəsihətdə söz açıbmış:

*Sən ey on dörd yaşlım, hər elmə yetkin,*
*Gözündə əksi var iki aləmin!*



Gözə (xüsusən də, gözəl gözə ) "Qürrətül-eyn" demişlər.

İnsanın ağlını keçmişi, indini, gələcəyi görən 3 gözlü qadına bənzətmişlər.

Göz Allahın insana bəxş etdiyi ən böyük möcüzələrdən biridir. Gözün quruluşuna fikir versək, görərik ki, bəbəyin çox hissəsi ağdır, az hissəsi isə (nöqtə boydası) qaradır. Adama elə gəlir ki, gözdəki işıq, görmə qabiliyyəti ağ hissənin hesabına olmalıydı. Lakin yaradanın qüdrəti öz işini görmüşdür. Nə görürüksə o qara nöqtənin hesabına görürük.

"Filankəsin gözünə ağ gəlib" ifadəsindən də aydın olur ki, gözdəki ağın çoxluğu görməklə (işıqla) bağlı deyil. "Gözünə ağ salaram ha!" hikkəsi-qarğışı da yəqin ki, bununla əlaqədardır?!

Allah kimlərisə anadan kor da yarada bilir. O, istəsə görmək olar, istəməsə yox! Marağalı Əhvədi "Cami-cəm" əsərində Allaha üz tutub bu sirri belə açıqlayır:

*Görərəm, əlbəttə, göstərsən əgər,*
*Əgər göstərməsən göz necə görər?*

Qədim yunan filosofu Diogen bir daha heç kimi görməsin deyə günəş işığını böyük güzgüdə öz gözünə doğru əks etdirərək özünü kor etmişdir.

Homer, Rudəki, Süleyman Stalski, görücü Vanqa kor olmuşlar. Ancaq hamıdan daha yaxşı görmüşlər. Yazıçı Nikolay Ostrovski də gözlərini itirmişdi. Lakin ruhdan düşməmiş, "Polad necə bərkidi" romanını kor ola-ola yazıb yaratmışdı. Ömrünün son 15-20 ilini Borxes kor halda yaşayıb.

"Aşıq Veysəl 7 yaşına qədəm qoyanda Sivası ölətli çiçək xəstəliyi bürüyür. Veysəl də bu amansız düşməndən yaxa qurtara bilmir. Sol gözünü itirir. Sonra sağ gözünə pərdə enir. Amma yenə dünya işığını alatoran olsa da görə bilirmiş. Hələ dünya gözündə yenə şirinmiş. Belə davam etsəydi... Etmir. Tale onunla amansız bir oyun oynamağa başlayır. Balaca Veysəl bir gün inək sağırmış. Atası yanına gələrkən uşaq şıqqıltıya geri qanrılır. Bir budaq parçası onun az-çox işığı qalan gözünə pərçimlənir. Dünya Veysəlin üzünə bax, beləcə qapanır, həmişəlik.

Bir gün Veysəl sazla tapışır. Bu tanışlıq dostluğa çevrilir, ömür boyu onun qəlbinə dilmanclıq edir.

Saz aşıq Veysəl əlində narahat dünyamızın ən etibarlı ləngəri idi. Cahanın durumunu, çevrəsindəki haqsızlıqları insan oğlunun azan, qəti-rəhm olan vicdanını bu ünlü ozan saz vasitəsilə görürdü. Aşığın eləcə gözləri görmürdü, ürəyindən dünyaya onlarla maraq gözü baxırdı.

Bir gün ən qüdrətli göz həkimləri yığılıb onun mayıflığına çarə düşünürlər. Böyük bir ümidlə yarğı üçün aşıqdan razılıq almaq istəyirlər. Dünyanın isti-soyuğunu dadmış aşıq Veysəl dərhal qəti etirazını bildirir:

- Mən qəlbimin evində bütün qurğu-büsatı yerli-yerində olan möhtəşəm bir dünya yaratmışam, deyir. Gözümü açarsız, qorxuram o gözəl dünyamdan əsər-əlamət görməyəm. İstəmirəm! Öz daxili dünyamla məni rahat buraxın!"

(Məmməd Aslan. "İki zirvə" kitabına ön sözdən)

Ömrünün son illərində Aşıq Alının da gözləri tutulur. Bir qoşmasında özü bunu belə agah edirdi:

*Bir zaman aşıqdım, başqa əyləşən,*
*indi ayaqlarda kor Aşıq Alı!*

Sevgilisi zalım bir bəy tərəfdən öldürülmüş Aşıq Bəsti "Xançoban" adıyla onu şeirlərində yad etmiş, həsrətiylə yanıb-yaxılmış, zar-zar ağlamaqdan gözləri kor olmuşdu. Bu səbəbdən də eldə "Kor Bəsti" adıyla məşhurlaşmışdı.

...Xalq arasında belə bir ifadə işlədilir: "Səni haqqa ismarladım". Bu o deməkdi ki, görüm Allahın nəzəri (gözü) daim sənin üstündə olsun!

Məşhur bolqar görücüsü Vanqa gözləri kor olsa da çox şeyi, uzaq gələcəyi çox dəqiq və aydın görürdü. Ali Qüvvə ona unikal bacarıq və qabiliyyət vermişdi.

Vanqa deyirdi: "Böyük bir Göz bizim bütün əməllərimizə nəzarət edir. Heç kəs və heç nə gizli qala bilməz".

"El gözündən düşən boy atmaz". Bu mənada gözdən düşmək ən ağır müsibət hesab olunur. İnsanlar bəzən Axirətə və ordakı Qıl körpüsünə inanmırlar. Çox nahaq! Mən bu fikirdəyəm ki, o körpüdən biri də bu dünyadadır. Bu, El gözüdür, "El gözü tərəzidir". Kim el gözündə ucalırsa o "körpüdən" asanlıqla keçir. Kim alçalırsa bəri başdan hamının gözündən düşüb "qır qazanı"nda yanmırmı?!

Aşıq Ələsgər gözün qüdrətindən yaxşı xəbərdar olduğu üçün qoşmalarından birində deyirdi:

*Haqq ilə nahaqqı axtaran hakim,*
*Tapar qulaq ilə göz arasında.*

Demək, haqqın üzə çıxmasını istəyən hakim gözdən (görəndən) və qulaqdan (eşidəndən) yaxşı şahid tapa bilməz! Ələsgərin gəldiyi bu nəticə Xəqaninin bir rübaisində dediyi fikirlərlə necə də səsləşir:

*Getdi, ürəyimi apardı dilbər,*
*Qulağım səsdədir, gözüm yol çəkər.*
*Gördünmü? - söyləyir qulağım gözdən,*
*Gözümsə qulaqdan: - Varmı bir xəbər?*

"...Dədə Qorqud" dastanında Dircə Xan xain yoldaşlarının hiyləsiylə oğlu Buğacı oxla vurur. Xızır gəlib onu axtaran anasına deyir ki, qorxma, oğlun bu yaradan ölməyəcək. "Ana südü, dağ çiçəyidi onun yarasının dərmanı" deyib yaranı üç dəfə sığayıb qeybə çəkilir

Məqsədim bu yaradan danışmaq deyil. Anası oğlunun başı üstə durub onu səsləyəndə Oğuz igidinin (türkün!) gözlərini bu cür öymüşdü:

*"Qara qıyma gözlərin uyğu almış, açğıl, axı!"*

Selcan Xatunu almağa gələn Qanturalı ağır imtahandan sonra onu da götürüb doğma yurd-yuvaya geri dönərkən yolda yatır. Bu zaman Selcan Xatun baxır ki, Trabzon tərəfdən bir qoşun onları haqlahaqladı.

O, Qanturalını yuxudan Oğuz igidlərinə aid öygülərlə - "cizgilərlə" səsləyib qaldırmışdı: "Qafil olma, qara başını qaldır,yigit, Ala qıyma görklü gözün açğıl, yigit!".

Əslində, bu öygülərdə Oğuz igidlərinin gözlərinin "şəkli" çəkilmişdir.

...Beyrək 16 illik əsirlik həyatından sonra obasına döndüyü zaman özünün dəniz qulunu (!) Boz ayğırını görüb tanıyanda Boz ayğır da Beyrəyi tanımışdı.

Beyrək Boz ayğırını öyəndə belə demişdi: "İki şəbçırağa bənzər sənin gözciyin, At deməzəm sana, qardaş derəm! Qardaşımdan yey!"

Beyrəyin 7 qız qardaşı varmış. O birilər onu ozan paltarında tanımasalar da, ulu (böyük) qız qardaşı tanımışdı deyəsən!

Bu, onun öygüsündən görünür:

*Qara qıyma gözlərin cöngəlməsəydi,*
*Ağam Beyrək deyəydim sana!*

...16 ildi ki, birdən-birə yoxa çıxmış Beyrəkdən hamı əlini üzmüşdü. Öz yarı da, ata-anası da, bacıları da.

Lakin birdən xəbər çıxır ki, Beyrək sağdır! Atası Bəyburanın oğul yolu gözləməkdən, ağlamaqdan gözləri tutulmuş, ümidünü hər şeydən kəsmişdi. O, Beyrəyin sağ olduğu xəbərini eşidəndə buna inanmaq istəmir. Deyir ki, bir şərtlə bu xəbərə inanaram ki, "Sırça barmağını qanatsın, qanını dəsmalına sürtsün, gözümə sürəyin. Açılacaq olursa, oğlum Beyrəkdir...

Ağlamaqdan gözləri görməz olmuşdu. Dəsmalı gözünə silcək Allah-taalanın qüdrətilə gözü açıldı."

Belə bir əhvalat çox-çox qədimlərdə də olmuşdu. Yaqub peyğəmbər oğlu Yusif itirmişdi. Yusifin həsrətindən gözləri kor olmuşdu. Atanın gözləri oğlunun köynəyinin iyini alan kimi açılmışdı.

...Göz gözələ baxmaq üçün yaranmışdır. Nəsimi deyirdi: Gözəli görməsəm "Ənəlhəq" deyə bilməzdim". "Kim gözələ baxmasa həq ondan ötrü gizli qalar."

Şibli həzrətləri yatmamaq üçün gözlərinə duz sürtərmiş.

Gözəl gözü görüb ona o saat aşiq olurlar.

Sarı Aşığa görə göz də aşiqmiş:

*Mən Aşıq, yara baxar,*
*Bayqular yara baxar.*
*Bir göz ki, kirpik çala,*
*O necə yara baxar?!*

Xəqani özünü gözə oxşatmışdı:

*Xaqani, məhəbbət eşqinə düşsən,*
*Uzaq ol, nanəcib, xəbis gözlərdən.*
*Sən gözsən, sənə çöp düşərsə əgər,*
*O qədər kirpik çal, rədd olsun həmən!*

El arasında "gözə gəldi", "göz tökürəm" ifadələri var. Xəqani 20 yaşlı oğlu Rəşidin vaxtsız ölümünü gözdəymə ilə əlaqələndirmişdi:

**(Davamı səhifə 16-da)**

# GÖZ

esse



(Əvvəli səhifə 15-də)

*Pis göz dəyib bizə, deyəsən dilbər,*
*Ki, bizə üz verdi ayrılıq, kədər.*

Gözdəymə deyilən şey həqiqətən var. Gözü dəmgəli adamların gözündə selen elementinin çox olduğu iddia olunur. M.Əvhədi də belə bir gözdəyməyə tuş gəlmişdi. Yazırdı ki,

*Tutulmaq bilmirdi ilham ayım heç,*
*Məni tərk etməzdi günlərlə sevinc.*
*Mənim bu halıma sanki göz dəydi,*
*Sinəmdən dəyən ox qədimi əydi.*

Gözdəyməyə qarşı dağdağandan və üzərlikdən istifadə edilir. Gözə gələn uşağın (adamın) başına üzərlik dolandırıb, tüstüsünü burnuna verib oxuyurlar:

*“Ağ göz, qara göz, göy göz,*
*pırtta göz,*
*çırtla göz!”*

Gözdəyməyə qarşı təkcə üzərlik və dağdağandan istifadə olunmur. Körpələrin üstünə göz muncuğu bağlayırlar ki, pis gözə gəlməsin. Böyük adamlar üçün canavar dişindən də istifadə olunur.

El arasında “Göz gözü çıxartdı” ifadəsi də var. Bu necə meydana gəlib, bilirsinizmi?

Gözləri çox dəmgəli olan iki adam varmış. Bir gün rastlaşırlar. Deyirlər ki, gəl görək hansımızın gözü daha güclüdür. Şərt belə olur ki, bir daşa baxıb gözlərini sınasınlar. Biri daşa baxan kimi daş dörd-beş yerə paralanır. O biri deyir:

- Ayə nə yaman gözün varmış!

Bu sözlər deyilincə o birinin gözləri pırtdayıb ovcuna düşür.

Bir arabaçı gözləri dəmgəli birisi ilə qarşılaşır. Öküzlərdən birinə onun gözü düşür. Pis-pis baxıb çıxıb gedir. Oğluna bir vedrə verib deyir: - get, filan arabaçı öküzlərdən biri indi kəsmiş olacaq, bizim də payımızı gətir, gəl.

Uşaq evə boş qayıdır. Gözü dəmgəli soruşur ki, niyə boş qayıtdın, a bala?

Oğlu deyir: - Arabaçı dedi ki, atana de ki, mən işimi ehtiyatla tutanam. Öküzün boyunduruğu dağdağandan idi.

Gözü pis adamların gözündən, gözü pis şeylərə baxmaqdan hifz etmək lazımdır. Tibet İncilində “Gözlərinizi və əllərinizi qoruyun!” deyə xəbərdarlıq edilirdi. Quranda isə mömin adamların gözü (nəzəri) yüksək qiymətləndirilir: “Möminlərin fərasətindən çəkinin. Çünki o, Allahın nuru ilə baxır”.

Yusifi quyudan çəkən karvançılar tapdıqları hikməti tanıya bilməmişdilər. Zahirə baxan gözlər batini görə bilməmişdi, biləmməzdi də!

Hər kəsin iki gözü olsa da bəsirət sahiblərinin üçüncü gözü də vardır. Bizim gözlərimiz bir- birimizi görmək üçün yetərlidir. Ariflər üçüncü gözlə baxıb görürlər. Qurbani və Abbas Tufarqanlı gözü bağlı halda öz Pərilərini görüb tanıya bilmişdilər. S.Vurğun “Gözüm gözünüzdən uzaq olsa da könüldən könülə yollar görünür” misralarını təsadüfən yazmamışdı.

İnsan ömrü boyu gözləri daha yaxşı açıla-açıla əvvəlkindən daha yaxşı görə-görə yaşayırmış. Bəsirət gözü deyilən üçüncü göz hər adamda olmur ki! “Bundan bir müddət keçdi, gözümü bir qədər açdılar. O qədər açdılar ki, mən baxanda elə şeylər gördüm ki, əvvəl görməmişdim. Təəccüb etdim. Hər gün gözümü bir qədər artıq açdılar. Mən elə şeylər gördüm ki, Ona heyran qaldım. Nəhayət, gözümü tamam açdılar və dünyanı olduğu sifətdə mənə göstərdilər.” (Şəhabəddin Sührəverdi “Qırmızı ağıl” risaləsindən).

*Unutmayıb qul haqqını gözləsən,*
*Qismətini axirətdə gözlə sən.*
*Qəlb gözünlə baxıb Onu görərsən,*
*Görəməzsən yaradanı gözlə sən.*
(*Nəsib*)

Atlar qeyblə bağlıdırlar, 3-cü gözlə görə bilirlər. Zülmətə gedəndə İsgəndərlə Xızır mindikləri atların balasını bayırda qoyub, gözlərini bağlayıb Dirilik suyunu axtarmağa getmişdilər.

...Qiyamət günü olmayacaqdı. Bir hədisdə deyilir: “Qiyamət günü yatırdı, onu yuxudan sənin baxışın oyatdı”.

“Dünyada yeganə olmaq istədim” deyən M.Füzuli dahi bir şair kimi qüdrətli olmasının səbəbini açıqlayaraq deyirdi: “Ona (Heyrətiyə) əcəm şahı pul verdi, mənə ərəb şahı (Həzrət Əli) nəzər etdi”.

Gözəl gözlərə söz yoxdur. Ceyran yaxud maral gözündən tora düşür. Xan Kərəm yaralı maralı görəndə demişdi: “Gözlər bənzər xan Əslinin gözünə!”

Klassik ədəbiyyatda gözlər haqqında ən çox şeirlər ala gözlərə yazılmışdır. Nəbati hətta Fərhadın ala gözlü olduğunu belə bilmişdir. M.P.Vaqif durnalardan görün nəyi xəbər almışdı:

*Bir ala gözlünün sorağındayam,*
*Görünürmü görün gözə, durnalar?*

Yaxud böyük şair gördüyü qızı belə təsvir edirdi: “Qəmzə kaman, müjgan xədəng, göz ala...” Yaxud da bununla rahatlanmır, deyirdi:

*Mən sevmişəm ala gözün sürməsin,*
*Bədnəzər dəyibən ziyan verməsin.*

Əmir Xosrov Dəhləvinin “Gözləri çıxardıb ismətini şahdan qoruyan bir qızın hekayəti” adlı bir əsəri var.

Şahın gözü bir gözəlin gözünə düşübmüş. Həmin gözəl gözlərini çıxarıb bir qula verir ki, “apar ver şaha, sevdiyi gözlərimdən gözünü çəksin daha”. Hekayətin sonunda şair öz qızına üz tutub onu həmin qızdan ibrət götürməyə çağırır:

*Gözləriylə qorundu o gözəlin isməti,*
*Sən ey Xosrov gözünün bəbəyi, nuru, qızım,*
*Sən də öz ismətini o qız tək qoru, qızım!*

İnsanlar hirslənəndə ən böyük zərbələrdən biri də gözlərinə dəyir. Gözləri qan çanağına dönür, gözlərinə qan sağılır.

Qədimdə şahlar və hökmdarlar üsyançı adamların gözlərini mil saldırıb kor edərmişlər. Nadir şah xəyanətkarlarla birləşdiyinə görə, oğluna ən ağır cəza vermək üçün onun gözlərinin ovdurub tökdürmüşdü.

İsmayıl peyğəmbər uşaqlıqda atası onu Mina dağına qurban kəsməyə aparanda, qəlbinə vəsvəsə salıb yolundan döndərmək istəyən şeytanın bir gözünü vurub tökməklə intiqam almışdı. O vaxtdan da “Kor şeytan” ifadəsi yaranmışdı.

Əsl insan yaxına boylanıb uzağı görür. Peyğəmbər sözünün mənası uzaqgörəndir. Əsl göz sahibi baxıb hər yerdə, hər şeydə Allahdan bir nişan görər.

Yaradanın möcüzələri saysız-hesabsızdır.

Yarasa gecələr uçur, amma gözləri yoxdur.

Çəyirtgənin “gözü” dizindəymiş.

Qartal göyün dərinliyinə zillənib, ordan ovuna boylanar, şığıdığı ilə ovunun (kəkliyin) döşünü qoparıb aparar.

Canavar haqda danışırlar ki, bir Aylı gecədə Ceyrançöldən baxıb, yüz kilometrlərlə uzaqda olan Naltökən dağında otlayan görmüş, gedib onu tapmış, parçalayıb yemişdir.

Adamlar həmişə yaxşı şeylərin göz qabağında olmağını istəyiblər. Öz əzizinə deyiblər ki: “Qoymaram ki, gözümdən irağa düşəsən!”

Kimdənsə birdən ağılları bir şey kəsməyəndə obrazlı dillə belə deyiblər: “Gözüm səndən su içmir!”

Gözlə bağlı maraqlı el inanclara da mövcuddur. Kəsilmiş qoyun-quzunun yaxud qoçun hər iki gözünü bir adam yeməlidir. Hərə birini yesə bir-biriylə göz yağı olar, bir-birinə düşmən kəsilər. Hətta bir ifadə də var: “Nə mənə tərs-tərs baxırsan, elə bil, mənimlə göz yağı yemisən?”

Özünü təkəbbürlü aparana, “göynən” gedən adama qulaq burma verərlər, deyərlər: “Gözün ayağının altına baxsın”. Gözü dağınıq adamı danlayarlar, təhniz edərlər: “Gözünün” aya-çaya” baxdığı bəsdir”. Kiməsə insafsızcasına dağ çəkəndə deyilər: “Anamdan əmdiyim gözümdən gəldi”. “Yaralarım göz-göz oldu”.

Və gözlərin ən gözəli Məhəmməd peyğəmbərin gözləriymiş, deyə bilərik. Nədən ki?! Çünki o gözlər Allahı ən yaxın məsafədən Meracda görmüş, seyr etmişdi.

Nizamiyə görə Məhəmməd peyğəmbər Meraca gedəndə “qaldı varlığında bircə ürəyi”

Sonra da o yerə çatdı ki:

“...Varlığı bir gözə döndü...” (qəlb, könül, gözünə-yəni üçüncü gözə!) “Könül gördüyündə aldatmadı” (Quran 53.11)

*Eşitdi ağızdan çıxmayan səsi,*
*Gördü...görünməyən nurani əksi!*

Təsəvvüfdə həqiqəti görməyin 2-ci pilləsi eynül-yəqin adlanır. Buna Həqiqətin gözlə görünməsi deyilir.

Xudbin-özünü görür.

Həqbin-Haqqı, başqasını!

Hər kəsin, hər şeyin öz ömrü olduğu kimi gözün də göz ömrü var. Alimlərin fikrincə gözün işıq ömrü 300 ildir.

Gözdən öpmək ayrılıq hesab olunur.

Bəlkə insan, dünyaya heç gəlməyəydi, göz açmayaydı?

Bəlkə onda son nəfəsdə gözləri yumulmazdı?

Bəlkə gözləri açıq olsa da, ölənə kimi yumuluymuş?!

Bəlkə də, kim bilir, insan öləndən sonra açılırmış gözləri?!

Bəlkə hər şey Hüseyn Cavidin “Şeyx Sənan” pyesində kor Ərəbin oxuduğu mahnıda deyildiyi kimi olaydı:

*Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı.*
*Nə xəlq olaydı, nə xaliq, nə əşki-həsrət olaydı.*

...Könüldə nuru-məhəbbət, gözümdə pərdeyi-zülmət,

Nə nur olaydı, nə zülmət, nə böylə xilqət olaydı!